

■ ƏZİZ KƏRİM

## GÜLƏRƏM

Bədənim odlana, sinəm dağıla,
Hicrana dözərəm, gülsən gülərəm.
Sənin gözlərindən dərdim doğula,
Hicrana dözərəm, gülsən gülərəm.

Əriyib tükənsə qəlbimin yağı,
İstidən odlansa sevgi otağı.
Atəşə ərisə gözümün yağı,
Oduna dözərəm, gülsən gülərəm.

Əlinlə ömrümə ölüm yazılsa,
Bu hökmün fərmanın göydən asılsa,
İşığım tükənsə, şövqüm azalsa,
Üzümə baxanda gülsən gülərəm.

## GƏL GÖZƏLİM

Gəl gözəlim, elə dolan, elə gəz,
Qıyma səndən nə inciyim, nə küsüm.
Kəlməbaşı yalan deyib, salma səs,
İstəyirsən mən həm görüm, həm susum?

Sevən qəlbim hər yalana alışmaz,
Yalan sözlər gözəlliyə yaraşmaz.
Mətin igid bu yalanla barışmaz,
İstəyirsən ürəyimdə qəm, susum?!

Sənin şəhla baxışların məst edər,
Gözəlliyin bu ömrümə qəsd edər.
Bir öpüşün qalan ömrə bəs edər,
İnanma ki, bu yaşımda mən susum!

## BİLMƏDİ

Tək sənə görə yolumdan döndüm,
Dedim üzümə günəş doğular.
İblis gözünə qəfil göründüm
İndi həyatım bəs necə olar?!

Tikan bitibmiş yolumun üstə,
Mən gördüyümü mələk sanmışam.
Dolandım asta, yeridim asta,
Oddan xəbərsiz oda yanmışam.

İndi fikirlər beynimi didir
O üz verdiyim üzə gülmədi.
Mən ondan ötrü nələr çəkmişdim
Heyif ki, bunları özü bilmədi.

Kaspi.-2017.-25-27 fevral.